# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 04 mart tarixli 447-06/S nömrəli Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və bir sıra qərarlarının ləğv edilməsi haqqında**

“Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 04 mart tarixli 447-06/S nömrəli Sərəncamının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi üçün ayrılan neft məhsullarının və maye qazın Bakı şəhərindən Naxçıvan Muxtar Respublikasına daşınması ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi və Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu ilə “Naxçıvan-Nəqliyyat” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında bağlanmış müqavilələrin və neft məhsullarının topdan və pərakəndə satış üzrə yeni qiymətlərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 6 avqust tarixli 67 nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

2. “Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin ştat cədvəli”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 sentyabr tarixli 123 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

3.1. “Naxçıvan Muxtar Respublikası ərazisində neft məhsullarının topdan və pərakəndə satış qiymətləri, elektrik enerjisinin, təbii qazın, su və suyun axıdılmasının, avtonəqliyyatda sərnişin daşınmanın və Dövlət Yol Polisi İdarəsinin göstərdiyi xidmətlərin tariflərinin (qiymətlərinin) təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 8 yanvar tarixli 1 nömrəli Qərarı;

3.2. “Bakı-Naxçıvan-Bakı marşrutu ilə Naxçıvan Muxtar Respublikasının tələbatını ödəmək üçün neft məhsulları və təhlükəli yüklər daşıyan dörd və daha çox oxu olan yük avtomobillərinə kompensasiya ödənilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 12 iyun tarixli 51 nömrəli Qərarı;

3.3. “Ölkə daxilində istehsal edilən və qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən avtomobil benzinlərinin və dizel yanacağının Naxçıvan Muxtar Respublikasına daşınmasına (təchizatına) görə Naxçıvan Muxtar Respublikasının büdcəsindən subsidiyanın verilməsi Qaydaları”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 8 sentyabr tarixli 179 nömrəli Qərarı.

4. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “ 17 ” may 2024-cü il

№ 42